

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 16-17
(7065-7066) ✲ Bazar ertəsi, 4 mart 2013-cü il ✲ Qəzet ayda 4 dəfə çıxır ✲ Qiyməti 40 qəpik

## *Azərbaycan Prezidenti İlham Əliyevin Qəbələ rayonuna səfəri*

# Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də təyyarə ilə Qəbələ rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev Parkında görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, parkda əhalinin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

AzərTAc.





# Qəbələ Mədəniyyət Mərkəzinin açılışı olmuşdur

## *Prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir*

Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələ Mədəniyyət Mərkəzinin açılışında iştirak etmişdir.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.

Dövlət başçısına məlumat verildi ki, nəhəng "Ağ royal" formasında tikilmiş bina ətraf ərazi ilə ahəngdar mühit yaradır. Binanın alt qatında avtomobillər üçün xüsusi qaraj inşa olunmuşdur. Mərkəzin foyesi genişliyi və müasirliyi ilə diqqəti cəlb edir. Burada Mədəniyyət Mərkəzinin hazırkı görünüşü və gələcək layihələrlə bağlı maketlər də vardır. Foyedə, həmçinin ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə mədəniyyətin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə də yaradılmışdır. Mərkəzdə teatr tamaşalarının, konsert proqramlarının, yeni texnologiya ilə təqdim olunan kinofilmlərin nümayişi və digər müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür imkan mövcuddur.

Bildirildi ki, üç qrim, bir məşq otağının fəaliyyət göstərdiyi mərkəzdəki 400 yerlik əsas tamaşa salonu nümunəvi tərtibatı ilə diqqəti cəlb edir.

**(Ardı 2-ci səhifədə).**



